**TƏSDİQ EDİRƏM**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri**

**_________________prof. Famil Mustafayev**

**"_____"________________2019-cu il**

**5502.01 - Ümumi tarix ixtisası üzrə fəlsəfə doktoru imtahanının**

# P R O Q R A M I

## 1. Qədim dünya tarixi

Qədim Şərqdə quldarlıq quruluşunun ümumi və fərqli xüsusiyyətləri. Qədim mədəniyyət mərkəzləri. Qədim Misir. Qədim Misir tarixinin öyrənilməsi üçün mənbələr. Misir heroqlifləri. Misir erkən səltənət dövründə. I-II sülalələr. Qədim səltənət dövrü. Misir V-VI sülalə fironlarının hakimiyyəti dövründə. Qədim səltənət dövründə Misirin xarici siyasəti. Misir orta səltənət dövründə. XI-XII sülalələrin hakimiyyəti dövründə daxili və xarici siyasət. Misir yeni səltənət dövründə. Hiksosların Misirdən qovulması. XVIII sülalə fironlarının xarici siyasəti. Misir-Het münasibətləri. Misir XX sülalə fironlarının hakimiyyəti dövründə. Misir son səltənət dövründə. Misir Liviyalıların hakimiyyəti dövründə. Misir XXV Nubiya, XXVI Sais və XXVII Fars-Əhəməni sülalələri dövründə. Misirin Ellinizm mərhələsinə daxil olması. Qədim Misir mədəniyyəti. Qədim İkiçayarası. İkiçayarasının qədim dövlətləri. Şumer şəhər dövlətlərinin siyasi tarixi. Laqaş şəhər dövləti. İkiçayarası Akkadın hakimiyyəti altında. İkiçayarasının kutilər tərəfindən işğalı və nəticələri. III Ur sülaləsinin süqutu. E.ə. II minilliyin əvvəllərində İkiçayarasında siyasi pərakəndəlik. Qədim Mittani dövləti. Assur tarixinin dövrləşdirilməsi. Assuriyanın Orta Assuriya dövründə güclənməsi və yeni yüksəlişi. Arameylərin İkiçayarasına müdaxiləsi nəticəsində Assuriyanın süqutu. E.ə. I minillikdə Yaxın Şərqdə beynəlxalq vəziyyət. Assuriyanın yeni yüksəlişi və Babil dövləti. Qədim İkiçayarası xalqlarının mədəniyyəti. Het dövləti. Het tarixinin öyrənilməsi üçün mənbələr. Het tarixinin dövrləşməsi. Het mədəniyyəti. E.ə. II-I minilliklərdə Kiçik Asiyanın qərbində yerləşən dövlətlər. Troya və Firikiya şahlıqları. Liviya dövləti. Şərqi Aralıq dənizi hövzəsi dövlətləri. Suriya, Finikiya və Fələstin. Karfagen e.ə. IX-III əsrlərdə. Ərəbistan yarımadasının qədim dövlətləri. İran qədim dövrdə. Elam dövləti. Qədim Hindistan. Hindistan tarixinin dövrləşməsi. Qanq vadisində yaranan dövlətlər. Hindistana yunan-makedoniya müdaxiləsi. Hindistan Kuşan sülaləsinin hakimiyyəti dövründə. Qədim Hindistan mədəniyyəti. Qədim Çin. Qədim Çin tarixinin öyrənilməsi üçün mənbələr. Şan-İn dövlətinin yaranması. Çin Qərbi və Şərqi Çjou dövründə. Çin "Yeddi şahlıq" dövründə. U-Dinin islahatları. Sarızolaqlılar üsyanı. Çinin üç şahlığa bölünməsi. Qədim Çin ideologiyası və mədəniyyəti. Antik dövr anlayışı. Qədim Yunanıstan tarixi üzrə mənbələr. Ellinizm dövrü. Yunan tarixşünaslığı. Ada və materik Yunanıstanın müqayisəli təhlili. Lerna çarlığı. Axeylərin şimaldan müdaxiləsi. Krit tarixinin dövrləşməsi. Axey Yunanıstanı. Erkən, orta və son Ellada dövrləri. Troya müharibəsi. Axey Yunanıstanın

süqutu. Yunanıstan e.ə XI-IX əsrlərdə. Arxaik Yunanıstan. Yunan koloniyaları. Pelloponnes ittifaqı. Sparta dövləti. Korinf e.ə. VI əsrdə. Arqos. Olimpia oyunları. Qədim Attika. Drakon və Solon qanunları. Pisistratın tiraniyası. Klisfenin islahatları. Arxaik dövrü yunan mədəniyyəti. Klassik Yunanıstan. Mənbələr. Dövrləşmə. İoniya üsyanı. Yunan-fars müharibələri. Yunan iqtisadiyyatının Afina və Sparta yolu. Efialtın islahatı. I Afina dəniz ittifaqı və onun Afina Arxesinə çevrilməsi. Peloponnes müharibəsi. Yunan polislərinin böhranı. Klassik dövrdə Yunanıstan mədəniyyəti. Yunanıstanda Makedoniya hakimiyyətinin yaranması. Müqəddəs müharibələr. Demosfen. Xeroneya yürüşü. Korinfdə panellin konqresi. Makedoniyalı İsgəndərin işğalları. Ellin dövlətləri sisteminin yaranması. Ellin mədəniyyəti. Qədim Roma tarixi üzrə mənbələr və tarixşünaslıq. İtaliya e.ə. I minilliyin əvvəllərində. İtaliya və Siciliyada yunan şəhərləri. Qədim Latsiya. Roma padşahlıq dövründə. Roma quldarlıq dövlətinin yaranması. Padşahlıq dövrünün süqutu. Romada Respublika quruluşunun yaranması. Sinfi və silki mübarizə. Kanuleyin qanunları. Qortezi qanunu. Patrisi ilə plebeylərin mübarizəsinin başa çatması. Qalların Romaya hücumu. Kompaniyanın birləşdirilməsi. Latın müharibəsi. Samnit müharibələri. E.ə. VI-IV əsrlərdə Roma mədəniyyəti. Qərbi Aralıq dənizi sahili dövlətlər. Karfagen. I, II Pun müharibələri. Makedoniya müharibələri. III Pun müharibəsi və onun nəticələri. Roma Triumviratlar dövründə. Roma respublikasının süqutu. E.ə. III-I əsrlərdə Roma mədəniyyəti. Roma erkən imperiya dövründə. Eramızın III əsrində Roma imperiyasının böhranı. Son Roma imperiyası. Qərbi Roma imperiyasının süqutu.

**Əsas ədəbiyyat**

1. Həsənov Y. Qədim Roma tarixi. Bakı,1975
2. Yusifov Y.Qədim Şərq tarixi.Bakı,1993
3. Зайцев А.И.Культурный переворот в Древней Греции.Л.,1985
4. История Древнего Мира. Древний Восток: Египет, Шумер, Вавилон, Западная Азия. Минск,1998

**Əlavə ədəbiyyat**

1. История дипломатии.Т. I.М., 1941
2. История Древнего Мира. Древний Восток: Индия, Китай, страны Юго-Восточной Азии. Минск, 1999
3. История Древнего Мира. Древняя Греция.Минск,2000
4. История Европы.Т. I.М.,1988

## 2. Türk xalqları tarixi

Türk xalqları tarixinin əsas mənbələri. Arxeoloji tədqiqatlar və abidələr. Mərkəzi Asiya, Qazaxıstan, Sibir ərazilərində arxeloji tədqiqatların aparılması. Ceytun, Anauda, Altuntəpə, Namazgahtəpə şəhər mədəniyyətləri. Murqab, Cənubi Sibirdə Andronovo mədəniyyətləri. Afanasyeva tunc dövrü mədəniyyəti. Karasuk, Taqar mədəniyyət. Cənubi Sibir və Altayda skif kurqanları. Arjan şah, Pazırıq, Skif heyvan stili. Yazılı mənbələr. Çin mənbələri. Türk mənbələri. Yenisey, Orxon, Talas vadilərində türk yazılı abidələrinin aşkar olunması. Türk run yazılı abidələri. M.Kaşkarlı, Y.Balasaqunlu, Əbülqazi Xivəli, Məhəmməd Heydər, Məhəmməd Sadiq Qaşqari və b. Antik mənbələrdə türklər haqqında məlumatlar. Bizans müəllifləri türk tayfaları haqqında. Ərəb, Fars mənbələrinin türk xalqları və dövlətləri haqqında məlumatları. Rus mənbələri. Tarixşünaslıqda türklərin mənşəyi məsələsinə münasibət. Əhəməni İran dövlətinin və Makedoniyalı İskəndərin Qərbi Türküstana işğalçı yürüşləri (e.ə VI-III yüzilliklər). Türküstanın türk tayfalarının Makedoniyalı İskəndərin işğalına qarşı azadlıq mübarizəsi. Soqdiya, Baktriya və Xarəzm vilayətləri Selevkilər dövlətinin tərkibində. Yunan-Baktriya dövlətinin yaranması. Parfiya dövlətinin yaranması, süqutu. Kanq dövləti və Usunlar. Mərkəzi Asiyada Kuşan dövlətinin

iqtisadi, mədəni və siyasi həyatı. Şərqi Hun imperiyası. Qərbi Sibirdə, Mərkəzi Asiyada hunlarla başlayan türklərin dövlətçilik tarixi. Teoman (Tuman) və Metenin hakimiyyəti, onun daxili və xarici siyasəti. Kün Tanhunun dövründə Hun dövlətinin tənəzzülünün başlanması və iki Ordaya parçalanması. Hunların ictimai və siyasi quruluşu. Hunların qərbə köçü. Balamirin başçılığı ilə Şərqi Avropada yeni Hun dövlətinin yaranması. Hunların qotlarla mübarizəsi. Atillanın hakimiyyəti dövrü. Katalaun döyüşü. Hun dövlətinin parçalanması. Hunların ictimai, siyasi, hərbi quruluşu və təsərrüfat həyatı. Avar xaqanlığı. Bizans-Avar müharibələri. Avar-Frank müharibələri. Avar xaqanlığının süqutu. Bulqar xaqanlığı. Bolqarların ostroqotlarla döyüşü. Bolqar-Bizans müharibələri. Bolqar dövlətin 2 hissəyə - Dunay Bolqar və Volqa-Kama dövlətlərinə parçalanması. Bolqarlarda dini inanclar. Monqol basqınları və xaqanlığın süqutu. Suvar xaqanlığı və onun ictimai, siyasi, təsərrüfat həyatı. Xəzər Türk dövlətinin yaranması (VII əsr). Xəzərlərin Albaniyaya hücumları. Ərəb-Xəzər döyüşləri Ərəb xilafətinə qarşı Bizans-Xəzər ittifaqı. Xəzərlərdə İslam və Yəhudi (iudaizm) dininin yayılması. Xəzər xaqanlığının süqutu. Xəzər xaqanlığında ictimai quruluş və təsərrüfat həyatı. Erkən orta əsrlərdə Mərkəzi Asiyanın türk xaqanlıqları. Tele xaqanlığı. Cucan xaqanlığı. Ağ Hun imperatorluğu (Eftalit çarlığı). Eftalit dövlətinin ictimai, siyasi quruluşu və süqutu. Türk xaqanlığı. Boz qurd əfsanəsi. Türk xaqanlığının 2 yerə parçalanması. Türk xaqanlığında ictimai və siyasi quruluş. II Göy Türk xaqanlığını formalaşdırması. Qapağan (Moço xan), Kül Tigin və Bilgə xaqanların hakimiyyəti. Uyğur xaqanlığı. Uyğur etnonimi (VIII əsrə aid) qədim türk run yazılarında. Uyğur xanlığı Moyon Çurun, İdigin xanın, Tun Moko Tarxanın hakimiyyəti dövründə. Qırğız-uyğur müharibələri. Uyğur xaqanlığında ictimai və iqtisadi quruluş. Qırğız xaqanlığı və onun ictimai, siyasi, təsərrüfat həyatı. Cənub-Şərqi Avropada türk siyasi qurumları. Peçeneqlər və kəngərlər. Bizans-peçeneq və peçeneq-rus iqtisadi- siyasi münasibətləri. Peçeneqlərin Kiyev Rus dövlətinə və Bizansa hərbi səfərləri. "Kəngər" etnonimi. Peçeneqlərin Malazgird döyüşündə iştirakı. Qıpçaqlar. Qıpçaqların Kiyev Rus dövləti ilə siyasi münasibətləri. Kimaklar. Kimak (Kaymak) dövlətinin yaranması. Qərbi Türküstan VII-XII əsrlərdə. Orta Asiyanın Xilafət tərəfindən işğal olunması və ona qarşı xalq üsyanları. Türkəş xaqanlığının yaranması və süqutu. Karluq xanlığının yaranması, süqutu. Kidan (Qarakidan) dövlətinin yaranması, süqutu, ictimai quruluş və mədəniyyəti. Samanilər dövlətinin yaranması və süqutu. Oğuz dövləti. Tarixdə oğuz türklərinin mənşəyi problemi. Səlcuq türklərinin Toğrul və Çağrı bəy qardaşlarının rəhbərliyi ilə Xorasana daxil olması. Səlcuq dövlətinin yaranması. Səlcuq imperiyası Alp Arslanın, Məlikşahın hakimiyyətləri dövründə. XI əsrin sonlarından Səlçuq dövlətində ara müharibələrinin başlanması. XII əsrin 50-ci illərində dövlətin süquta uğraması. Qəznəvilər dövlətinin yaranması, onun daxili və xarici siyasəti, süqutu. Qaraxanilər dövlətinin yaranması, dövlətin süqutu, təsərrüfat həyatı və ictimai quruluşu. Xarəzmşahlar dövlətinin yaranması, süqutu, ictimai quruluş və təsərrüfat həyatı. Qədim dövrdə və erkən orta əsrlərdə türk xalqlarının mədəniyyəti**.** Monqol imperiyası və yenidən yaranmış Monqol-Türk dövlətləri. Cağatay ulusunun yaradılması, süqutu. Xaydu dövlətinin yaranması və süqutu. Volqaboyu və Sibirin türk xalqları və dövlətləri. Qızıl Orda dövlətinin parçalanması. Qazan xanlığı. Həştərxan xanlığı. Sibir xanlığı. Krım xanlığı. Şimali Qafqazın türk xalqları**.** Kumıklar. Noqaylar. Qaraçaylar. Balkarlar. XIV-XV əsrlərdə Mərkəzi Asiyanın türk dövlətləri. Teymur imperiyasının yaranması, onun daxili, xarici siyasəti və süqutu. Osmanlı dövlətinin təşəkkülü və ilk işğalları. . XIV-XV əsrdə Osmanlıda dövlət quruluşu, ictimai-iqtisadi münasibətlər. XV əsrdə Osmanlı sultanlarının xarici siyasəti. Misirdə Məmlük türk-müsəlman dövlətinin meydana gəlməsi. Osmanlı dövləti XVI əsrin son rübü-XVII əsrin I yarısında. XVII əsrin II yarısı XVIII əsrlərdə Osmanlı dövlətinin daxili və xarici siyasəti. Rus-Türk müharibələri. Qazax tayfaları. Qazax xanlığının yaranması. Qərbi Sibir, Altay və Şərqi Sibirin türk dövlətləri və tayfaları. Tuva.Tümən xanlığının yaranması və süqutu. Sibir tatar xanlığının yaranması və süqutu. Şorlar. Xakaslar. Tele tayfası. Tele xaqanlığı və süqutu. Kurikanlar. Altay tayfaları. Yakutlar. Orta əsrlərdə türk xalqlarının mədəniyyəti. XVII-XVIII əsrlərdə Mərkəzi Asiya və Qazaxistanin

türk xalqlari. XVII-XVIII əsrlərdə Mərkəzi Asiyanın sosial-iqtisadi və siyasi vəziyyəti. Qaraqalpaqlar, onların əsas məşğuliyyəti. Qırğız dövləti (XVII- XVIII əsrdə).
Türkmənlər (XVII-XVIII əsrlərdə). Uyğurlar (XVII-XVIII əsrlərdə). Kokand xanlığı (XVII-XVIII əsrlərdə). Buxara xanlığı (XVII-XVIII əsrlərdə). Qazaxıstan XVII-XVIII əsrlərdə. Mərkəzi Asiya və Qazaxıstan xalqlarının mədəniyyəti (XVII-XVIII əsrlərdə). Volqaboyu, Krim və Sibirin türk xalqlari (XVII-XVIII əsrlər). Şimal-Şərqi Sibir xalqları, Amurətrafı, Saxalin və Kuril adaları xalqları XVII-XVIII əsrlərdə. Volqaboyu, Krım və Sibir xalqlarının mədəniyyəti XVII-XVIII əsrlərdə. Mərkəzi Asiya xalqları XIX əsrin I yarısında. Qazaxıstan XIX əsrin I yarısında. XIX əsrin I yarısında Volqaboyu, Krım və Sibir. Rusiyanın Mərkəzi Asiya və Qazaxıstanı işğal etməsi. Türküstan general qubernatorluğunun yaradılması. Pamir sülhü. XIX əsrin II yarısında Orta Asiya və Qazaxıstanın siyasi vəziyyəti. XIX –XX əsrin əvvələrində Osmanlı dövlətinin daxili və xarici siyasəti. Orta Asiya və Qazaxıstanda XIX əsrin 60, 70, 80-ci illər islahatları. Orta Asiya və Qazaxıstanda sosial-iqtisadi münasibətlər (XIX əsrin II yarısı). Volqaboyu, Sibir və Krım bölgələrində burjua islahatları( (XIX əsrin 60-70-ci illərində). Kapitalizmin inkişafı. XIX əsrdə Orta Asiya və Qazaxıstan xalqlarının mədəniyyəti. XIX əsrdə Volqaboyu, Sibir və Krım xalqlarının mədəniyyəti. XX əsrin əvvəllərində Türküstan, Volqaboyu, Sibir və Krım. Türk xalqları I Dünya müharibəsi və Fevral inqlabı dövründə. XX əsrin əvvəllərində türk xalqlarının mədəniyyəti. Türkiyə Cumhuriyyətinin qurulması. Türkiyə Cumhuriyyəti (XX əsrin 20-30-cu illərdə). Türkiyə Cumhuriyyəti (XX əsrin 40-50-ci illərdə). Türkiyə Cumhuriyyəti (XX əsrin 60-90-cı illərdə). Türkiyə Cumhuriyyəti (XX əsrin sonu-XXI əsrin əvvəllərində). Müasir dövr Rusiyada çarizmin devrilməsi və türk xalqlarının milli azadlıq hərəkatı. Rusiyada vətəndaş müharibəsi, bolşeviklərin yeni işğal siyasəti və türk milli dövlət qurumlarının sovetləşdirilməsi. Krım Xalq Respublikasının yaradılması. Başqırd muxtariyyətinin elan edilməsi. Çuvaş muxtar vilayətinin yaradılması. Kokandda Türküstan Federativ Respublikasının yaradılması. Türküstan Muxtar Sovet Sosialist Respublikasının elan edilməsi. Tuva Xalq Respublikasının təşkil edilməsi. SSRİ-nin Türk xalqları 1920-1930-cu illərdə. Qırğızıstan MSSR-nın yaradılması. Türküstanın milli dövlətlərə ayrılması. Torpaq islahatları kollektivləşdirmə və sənayeləşdirmə. Repressiyaların ağır nəticələri. II Dünya müharibəsi və SSRİ-nin türk xalqları. SSRİ-nin Türk xalqları 1950-1980-ci illərdə. Müstəqil türk dövlətləri və muxtar dövlət qurumları XX əsrin sonu-XXI əsrin əvvəllərində. SSRİ-nin dağılması ilə Mərkəzi Asiyada yeni dövlət qurumlarının yaranması. Mərkəzi Asiyanın türk dövlətlərinin beynəlxalq siyasi, iqtisadi və mədəni münasibətlər sisteminə inteqrasiya olunması. Türk xalqlarının mədəniyyəti.

## Əsas ədəbiyyat


1. Əhmədov R. V. Türk xalqlarının tarixi (XIII- XX əsrin əvvəlləri). Sumqayıt.
2. İsmayılov İ. Türk dünyası XX əsrin 90 – cı illərində. B., Zaman, 2001, s. 84 – 85.
3. Qurbanov Ramin. Türk xalqlarının tarixi II hissə, Bakı, “İqtisad Universiteti” Nəşriyyatı. 2011, 216 səh.
4. Lev Qumilyov. Qədim Türklər, Bakı, Gənclik, 1993, 536 səh.
5. Mehdiyeva N. Türk xalqlarının tarixi. Yeni dövr (XIX – XX əsrin əvvəlləri). Bakı, Adiloğlu nəşriyyatı, 2010, 352 səh.
6. Muxtarova Ə. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, “Adiloğlu” nəşriyyatı, 2010, 448 səh.
7. Rəfiq Özdək. Türkün qızıl kitabı. Birinci kitab. Bakı Yazıçı, 1992, 184 səh.
8. Rəfiq Özdək. Türkün qızıl kitabı. İkinci kitab. Bakı Yazıçı, 1993, 230 səh.
9. Rəfiq Özdək. Türkün qızıl kitabı. Üçüncü kitab. Bakı Yazıçı, 1996, 240 səh.
10. Süleymanova Sevda. Türk Xalqlarının tarixi əm qədim zamanlardan bu günümüzədək: Bakı, Elm və təhsil, 2011, 351 səh.

**Əlavə ədəbiyyat**

1. Abdulla B.,Babayev T. Novruzov bayramı ensiklopediyası. Bakı “Şərq -Qərb”,2008,208s
2. Adilov M. M. Azərbaycanda yazı tarixinin tədqiqi problemləri. – Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Bakı, 1998, s. 4 – 10
3. Ağasıoğlu F. Daşbaba. Türkün daş yaddaşı. Bakı, 2013, 138 s.
4. Anadolu medeniyetleri muzesi. 1988 y. Ankara, 1989, 119 s.

## 3. Orta əsrlər tarixi

Orta əsrlər tarixi kursunun nəzəri metodoloji problemləri. “Orta əsrlər” (Medium aevum) anlayışı. “Qərbi Avropa” tarixi-coğrafi anlayışı. Orta əsrlər tarixinin dövrləşdirilməsi. Orta əsrlər tarixini öyrənmək üçün mənbələr.. Narrativ (təsviri), normativ (hüquqi) və sənədli materiallar. Quldarlıq istehsal üsulunun böhranı. . Xalqların böyük köçü. Roma imperiyasının tənəzzülü və parçalanması. Barbar tayfaları və onların ictimai quruluşu. Hunlar. Keltlər. German (alman) tayfaları. Qərbi Avropada feodal münasibətlərinin formalaşması və inkişafı yolları. İlk barbar krallıqları. Vesqot krallığı. Vandal-Alan krallığı. Burqund krallığı. Osqot krallığı. Lanqobard krallığı. Britaniyada barbar krallıqlarının yaranması. Anqlo-Sakson krallıqları. Frank krallığı. Barbar istilalarının əhəmiyyəti. Frank dövləti V-IX əsrlərdə. Salik qanunları. Allod. İcma – Marka. Erkən Frank dövləti Merovinqlərin hakimiyyəti altında. Xlodviq. Xristianlığın qəbul edilməsi. Frank dövləti Karolinqlərin hakimiyyəti dövründə Benefisi islahatı. Böyük Karl (772-804) imperiyasının yaranması. Verden sazişi. İmperiya Böyük Karlın varisləri dövründə. Bizans imperiyasının yaranması. Bizans Böyük Yustinianın hakimiyyəti dövründə. “Nika” üsyanı. Bizans imperiyası VI əsrin sonu – VIII əsrin birinci yarısında. Bizansda Əkinçilik qanunu. Yaxın Şərqdə hegemonluq uğrunda Bizans-Sasani və Bizans-Ərəb müharibələri. Bizans imperiyası VIII əsrin ikinci yarısı – IX əsrin birinci yarısında. Pavlikanlar üsyanı. Bizans imperiyası IX əsrin ikinci yarısı – XI əsrdə. Qərbi Avropada orta əsr şəhərlərinin meydana gəlməsi haqqında nəzəriyyələr və onların tənqidi. Orta əsr şəhərlərinin meydana gəlməsinin ilkin sosial-iqtisadi və siyasi şərtləri. Qərbi Avropa şəhərləri X-XIII əsrlərdə. Şəhərlərin feodal senyorlara qarşı mübarizəsi. Şəhər özünüidarəsinin formalaşması. Sənətkar sexləri. Orta əsr şəhərlərində kapitalizmin ilkin rüşeymlərinin formalaşması. Xaç yürüşlərinin səbəbləri və xarakteri. Roma papalarının Şərq siyasəti. Klermon yığıncağı. Feodalların Birinci xaç yürüşü. Şərqdə xaçlı dövlətlərinin təşkili. İkinci xaç yürüşü. Üçüncü xaç yürüşü. Dördüncü xaç yürüşü. Sonuncu xaç yürüşləri. Şərqi Baltikyanı ərazilərə xaç yürüşlərinin təşkili. Fransa krallığının yaranması. Kapetinqlər sülaləsinin hakimiyyəti. IX-XI əsrlərdə Fransa krallığının sosial-iqtisadi vəziyyəti. XII əsrdə kral domeninin güclənməsi və mərkəzləşmə prosesinin başlanması. Albiqoy müharibələri. Fransa krallığı XIII-XIV əsrlərdə. Fransada silki monarxiyanın təşəkkülü - Baş ştatlar. İngiltərə krallığı ilə Yüzillik müharibənin başlanması. Jakeriya üsyanı. XIV əsrin sonları XV əsrdə feodal ara çəkişmələrinin güclənməsi. Janna d’Ark. Yüzillik müharibənin başa çatması. Fransa krallığı XI Lüdovikin hakimiyyəti dövründə. Osqotlar və İtaliya. Papalıq dövlətinin meydana gəlməsi. Şimali, Mərkəzi və Cənubi İtaliyada feodal münasibətlərinin meydana gəlməsi. Erkən İtaliya şəhərləri. Şimali və Orta İtaliya şəhərlərinin alman feodallarına qarşı mübarizəsi. İtaliya XIII-XV əsrlərdə. İtaliya şəhərlərində sex quruluşunun dağılması və erkən kapitalist münasibətlərinin meydana gəlməsi. Florensiyada Mediçi tiraniyası. İtaliya XV əsrin sonlarında. Almaniyada feodallaşma prosesinin xüsusiyyətləri. Vahid alman erkən feodal dövlətinin yaranması. Alman krallığında I Ottonun daxili və xarici siyasət. Ottonların “Roma imperiyası”. Almaniya Frankoniya sülaləsinin hakimiyyəti dövründə. İnvestitura uğrunda mübarizə. Saksoniya üsyanı. Almaniya XII-XIII əsrlərdə. Almaniya XIV-XV əsrlərdə. Almaniyada imperatolar və məhəlli knyazlıqlar. Almaniyada XV əsrdə kəndli hərəkatı. İngiltərədə feodal münasibətlərinin meydana gəlməsi. İngiltərənin birləşdirilməsi. İngiltərənin Normandiya istilasının başlanması. İngiltərə XIII əsrdə. XIII əsrdə İngiltərə.

"Böyük azadlıqlar xartiyası". İngiltərə parlamenti XIII-XIV əsrlərdə. Silki monarxiyanın formalaşması. Uels, Şotlandiya və İrlandiyanın işğalı. Uot Tayler üsyanı. XV əsrdə İngiltərədə sosial-iqtisadi inkişaf, "Köhnə" və "Yeni" zadəganlar. Al qızılgül və Ağ qızılgül müharibələri. İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyətinin başlanması. İngiltərə milli dövlətinin formalaşması. Kordova xilafəti. Rekonkista hərəkatının başlanması və ilkin şərtləri. Leon və Kastiliya, Araqon, Kataloniya, Navarra və Portuqaliya krallıqları. Priney ölkələri XIII-XV əsrlərdə. Mavrlarla mübarizə. Kastiliya və Araqonun birləşdirilməsi. Böyük Moraviya dövləti. Çexiya dövlətinin yaranması. Çexiya XII-XV əsrlərdə. Çexiyada qusçular hərəkatı. Polşa dövlətinin meydana gəlməsi. Polşa XI-XII Polşa XIII-XV əsrlərdə. Skandinaviya ölkələrində feodal münasibətlərinin inkişafı. Norveç XII əsrin sonu XIII əsrin əvvəllərində. İsveçdə feodalizmin inkişafı. Danimarkada feodalizmin inkişafı. Danimarkanın Hanza ilə müharibəsi. Kalmar uniyası. Skandinaviya ölkələri XV əsrin ikinci yarısında. Erkən və klassik feodalizm dövründə Qərbi Avropada mədəniyyət. Qərbi Avropada kapitalist münasibətlərinin yaranması. XVI-XVII əsrlərdə Qərbi Avropada mütləq monarxiyaların formalaşması. Millətlərin təşəkkülü. Böyük coğrafi kəşflər və müstəmləkə sisteminin meydana gəlməsi. "Qiymətlər inqilabı" və onun doğurduğu sosial nəticələr. Almaniya XVI əsr və XVII əsrin birinci yarısında Almaniyanın iqtisadi, siyasi vəziyyəti. Almaniyada Reformasiyanın başlanması Martin Lüter. Vorms reyxstaqı. Xalq reformasiyası. Tomas Münser və onun reformasiya təlimi. Almaniyada kəndli müharibəsi. "Maddələr proqramı". Frankoniya üsyanı. Heylbron proqramı. Kəndli müharibəsinin məğlubiyyəti və nəticələri. Protestantçılıq. Şmalkalden ittifaqı. Şmalkalden müharibəsi. 1555-ci il Auqsburq dini sülhü. Almaniyanın mədəni inkişafı. İsveçrə ittifaqı XVI əsr və XVII əsrin birinci yarısında. İsveçrədə Reformasiya hərəkatı. Jan Kalvin və onun təlimi. İspaniya XVI əsr və XVII əsrin birinci yarısında. Niderland XVI əsr və XVII əsrin birinci yarısında. Niderland burjua inqilabı. Birləşmiş Əyalətlər Respublikası – Hollandiya. 1621-ci ildə İspaniya ilə müharibənin yenidən başlanması. Vestfal sülhü. Niderlandın mədəni inkişafı. İtaliya XVI əsr və XVII əsrin birinci yarısında, iqtisadi münasibətlər, siyasi pərakəndəlik və onun nəticələri. XVI əsrdə İngiltərənin sosial-iqtisadi və siyasi vəziyyəti. İngiltərədə reformasiya, Kral reformasiyası. XVI əsrin sonu XVII əsrin əvvəllərində İngiltərədə sosial ziddiyyətlərin kəskinləşməsi. Stüartların daxili və xarici siyasət. XVI əsrin əvvəllərində Fransanın siyasi cəhətdən birləşdirilməsi. XVI əsrdə Fransanın sosial, iqtisadi, siyasi vəziyyəti, mütləqiyyətin formalaşması. Fransada Reformasiya hərəkatı, Kral reformasiyası. Hügenotlar. Fransada Vətəndaş müharibəsi. Fransada XIII Lüdovikin daxili və xarici siyasəti. Kardinal Rişelye. Skandinaviya ölkələri XVI əsr və XVII əsrin birinci yarısında. Avstriya XVI əsr və XVII əsrin birinci yarısında. Macarstan XVI əsr və XVII əsrin birinci yarısında. Balkan ölkələri XVI əsr və XVII əsrin birinci yarısında. XVI əsr və XVII əsrin Birinci yarısında Avropada beynəlxalq münasibətlərin inkişafı. Avropa ölkələrinin Osmanlı İmperiyası ilə qarşılıqlı münasibətləri (XVI əsr-XVII əsrin birinci yarısında). XVI əsr və XVII əsrin birinci yarısında Avropa ölkələrinin mədəniyyəti.

**Əsas ədəbiyyat**


1. Mahmudov Y.M. Orta əsrlər tarixi (Avropa erkən orta əsrlərdə) / Ali məktəblər üçün dərslik. B., 2012;
2. Orta əsrlər tarixi: Ali məktəblər üçün dərslik / S.D.Skazkinin ümumi redaktəsi ilə. 2 cilddə, I c. B., 1986;
3. Гуревич А.Я. Проблемы генезиса феодализма в Западной Европе. М., 1970;
4. История дипломатии. Т.1. М., 1959;
5. История средних веков. В 2-х т. Т. 1 / Под ред. С.П.Карпова. М., 2008;
6. Кан А.С. История Скандинавских стран. М., 1980;
7. Колесницкий Н.Ф. Феодальное государство (V-XV вв.). М., 1967;
8. Майер В.И. Деревня и город Германии в XIV-XVI вв. Л., 1979;

9. Малов В.Н. Великие географические открытия. Международные отношения конца XV-XVI вв. В Западной Европе / История Европы, Т.3. М., 1993;
10. Чистозвонов А.Н. Нидерландская буржуазная революция XVI века. М., 1958

### Əlavə ədəbiyyat

1. Люблинская А.Д. Источниковедение истории средних веков. Л., 1955
2. Пристер Е. Краткая история Австрии. М., 1952
3. Ревуненкова Н.В. Ренессанское свободомыслие и идеологии Реформации. V., 1989
4. Ролова А.Д. Экономическое положение трудящихся масс Флоренции в второй половине XVI и в начале XVII в. Рига, 1974

### 4. Yeni tarix

Tarixşünaslıqda Yeni dövrün dövürləşdirilməsi problemi. İngiltərə burjua inqilabının ilkin şərtləri. Puritanlıq. I Karlm daxili və xarici siyasəti.. Uzunmüddəti parlamentin çağrılması. “Böyük remonstrasiya”. Presviterianlar. Birinci və İkinci vətəndaş müharibəsi. O.Kromvel və independentlər. Levellerlər hərəkatı. Parlamentdə “Prayd təmizləməsi”. Respublikanın elan olunması. Protektoratın daxili və xarici siyasəti. Stüartlar monarxiyasının bərpası. 1688-ci il dövlət çevrilişi. Bred bəyannaməsi. İngiltərə XVII əsrin sonu və XVIII əsrin I yarisinda. Parlament sisteminin inkişafı. Konstitutsiyalı–monarxiya rejiminin möhkəmlənməsi. Viqlər və torilər. İngiltərə və Şotlandiyanın uniyası. Böyük Pitt. Böyük Britaniyada Sənaye çevrilişi. Böyük Britaniyanin Şimali Amerikadakı koloniyalarının sosial-iqtisadi inkişafı. Şimali Amerika millətinin formalaşması. Amerika maarifçiliyi. B.Franklin. T.Cefferson. Şimali Amerikada istiqlaliyyət uğrunda mübarizə. “İstiqlaliyyət bəyannaməsi" onun tarixi əhəmiyyəti. Şimali Amerikanın konstitusiyası. Yeni dövrün başlanğıcında Fransanın sosial-iqtisadi quruluş. XIV Lüdovikin daxili və xarici siyasət. XVIII əsrdə Fransanın sosial–iqtisadi inkişafı. XV Lüdovikin və XVI Lüdovikin dövründə monarxiyanın daxili və xarici siyasəti. Fransa maarifçiliyi. XVIII əsrin ikinci yarısında sosial ziddiyyətlərin kəskinləşməsi. XVII əsrdə İspaniyanın iqtisadi və siyasi tənəzzülü. İspaniya və onun müstəmləkələri. İspaniya irsi uğrunda müharibənin nəticələri. XVIII əsrdə İspaniyada “maarifçi mütləqiyyət”. İtaliya yeni dövrün başlanğıcında. Otuzillik müharibədən sonra Almaniyanın iqtisadi, siyasi və mədəni tənəzzülü. “Alman millətinin “Müqəddəs Roma imperiyasının” dövlət quruluşu. Brandenburq-Prussiya dövlətinin yüksəlişi. II Fridrixin “maarifçi mütləqiyyəti”. Prussiyanın xarici siyasəti. XVII əsrin ortalarında Habsburqlar monarxiyasının sosial-iqtisadi quruluşu. “Praqmatik sanksiya". Mariya-Tereziya və II İosifin islahatları. Macarıstan Habsburqların hakimiyyəti altında. XVII-XVIII əsrlərdə Macarıstanda milli–azadlıq hərəkatı. Birləşmiş Əyalətlər Respublikası yeni dövrün başlanğıcında. Yeni dövrdə Danimarka və İsveçdə mütləqiyyətin təşəkkülü və inkişafı. İsveçdə silki parlamentarizm sistemi. XVIII əsrdə Finlandiyanın iqtisadi vəziyyəti. Norveç (XVII əsrin II yarısı-XVIII əsrdə). Latın Amerikası XVII əsrin ikinci yarısında və XVIII əsrdə. XVII əsrin ikinci yarısında və XVIII əsrdə Beynəlxalq münasibətlər və müstəmləkə sistemi. XVIII əsr Fransa burjua inqilabı və onun nəticələri. Fransada Milli konventin çağırılması. Fransa əleyhinə koalisiyanın genişlənməsi. Yakobin diktaturası. Fransada 9 termidor çevrilişi. Fransada 1795-ci il konstitusiyası. Direktoriya rejiminin daxili və xarici siyasəti. Fransa Konsulluq və Birinci imperiya illərində (1799-1814). “Napoleonun məcəllələri”. Napoleonun xarici siyasəti, müharibələr və onun nəticələri. Reyn ittifaqının yaradılması və onun xarakteri. Avstriyanın Fransaya qarşı müharibələrdə iştirakı. İtaliya dövlətlərində XVIII əsrin 90–cı illərində siyasi mübarizə və kütləvi xalq çıxışları. Risorcimentonun başlanması. Karbonarilər. Fransanın İspaniyaya müdaxiləsi. Ispaniyada 1812–ci il konstitusiyası. Müstəqilliyin bərpasının səbəbləri. Vyana konqresi və onun Yekun aktı. “Vyana sisteminin” və Müqəddəs İttifaqın yaradılması . XIX əsrin 20–ci illərində

